+

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 19

**Bakı şəhəri** "02" aprel 2015-ci il

**"Ambulator-poliklinika müəssisələrinin (şöbələrinin) aptek məntəqələrinin yaradılması barədə"**

Tibb müəssisələrinin dərman vasitələri ilə mərkəzləşdirilmiş qaydada təchizatının təkmilləşdirilməsi, onların səmərəli istifadəsinə nəzarətin gücləndirilməsi, qanunvericiliyə əsasən dövlət hesabına dərman preparatları ilə təmin olunan şəxslərin və dövlət proqramları çərçivəsində ambulator şəraitdə müalicə alan xəstələrin dərman təminatının yaxşılaşdırılması məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Ambulator-poliklinika müəssisələrinin (şöbələrinin) aptek məntəqəsi haqqında nümunəvi Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Bakı Şəhər Baş Səhiyyə İdarəsinin, Gəncə Şəhər Səhiyyə İdarəsinin, Sumqayıt Şəhər Səhiyyə şöbəsinin, Respublikanın rayon (şəhər) mərkəzi xəstəxanalarının rəhbərlərinə tapşırılsın:

2.1. dövlət hesabına dərman preparatları ilə təmin olunan şəxslərin və dövlət proqramları çərçivəsində ambulator şəraitdə müalicə alan xəstələrin dərman preparatları ilə təmin edilməsi üçün rayon (şəhər) poliklinikaların və ya mərkəzi xəstəxanalarının poliklinika şöbələrinin tərkibində 01.05.2015-ci il tarixdən müəssisənin ümumi ştat vahidi hesabına 1 ştat provizor (və ya əczaçı) vəzifəsi ayrılmaqla aptek məntəqələri yaradılsın;

2.2. aptek məntəqələrinin fəaliyyət göstərməsi üçün zəruri şərait təmin edilsin;

2.3. aptek məntəqələrində verilən dərman preparatlarından istifadənin səmərəliliyi məsələsi şəxsi nəzarətə götürülsün.

3. İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyar-zadəyə tapşırılsın ki, əhalinin real tələbatı nəzərə alınmaqla, tibb müəssisələrinin sifarişləri əsasında bu əmrə əsasən yaradılmış aptek məntəqələri dərman preparatları ilə təmin edilsin.

4. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə və İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyar-zadəyə tapşırılsın ki, ambulator-poliklinika müəssisələrinin (şöbələrinin) aptek məntəqələrində verilən dərman preparatlarının dövriyyəsinə elektron nəzarət sisteminin yaradılması üçün müvafiq tədbirlər görülsün.

5. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə və Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, bu əmrdən irəli gələn məsələlər həll edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Elsevər Ağayevə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 02.04.2015-ci il tarixli, 19 nömrəli əmri ilə təsdiq edilmişdir

**Ambulator-poliklinika müəssisələrinin (şöbələrinin) aptek məntəqəsi haqqında nümunəvi**

# ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1. Qanunvericiliyə əsasən dövlət hesabına dərman preparatları ilə təmin olunan şəxslərin və dövlət proqramları çərçivəsində ambulator şəraitdə müalicə alan xəstələrin dərman təminatı üzrə aptek məntəqəsi (bundan sonra – aptek məntəqəsi) şəhər poliklinikasının və ya mərkəzi rayon xəstəxanasının poliklinika şöbəsinin nəzdində fəaliyyət göstərən struktur bölmədir.

2. Aptek məntəqəsi müəyyən olunmuş imtiyazlı əhali qruplarına daxil olan və dövlət proqramları üzrə ambulator şəraitdə müalicə alan xəstələrin dərman təminatını həyata keçirir.

3. Aptek məntəqəsinin xidmət göstərdiyi ərazi və ya təhkim olunmuş kontingent tabelik üzrə yuxarı səhiyyə orqanı tərəfindən müəyyən edilir.

4. Aptek məntəqəsi öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının səhiyyə qanunvericiliyini, Səhiyyə Nazirliyinin qərar, əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

5. Aptek məntəqəsinin fəaliyyətinin monitorinqi Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən aparılır.

6. Aptek məntəqəsi sanitariya norma və qaydalara cavab verən otaqlarda yerləşdirilir.

7. Aptek məntəqəsinin iş rejimi tibb müəssisənin baş həkimi tərəfindən müəyyən edilir.

## II. Aptek məntəqəsinin fəaliyyət istiqamətləri

8. Aptek məntəqəsinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

8.1. müəyyən olunmuş ərazi üzrə əhalinin imtiyazlı qruplara daxil olan şəxslərin və dövlət proqramları çərçivəsində ambulator müalicə alan xəstələrin reseptlər əsasında dərman preparatları və tibbi ləvazimatlarla təmin edilməsi;

8.2. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərə bilər.

## III. Aptek məntəqəsinin vəzifələri

9. Aptek məntəqəsi bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

9.1. ərazi üzrə əhalinin imtiyazlı qruplara daxil olan şəxslərin və dövlət proqramları çərçivəsində ambulator müalicə alan xəstələrə reseptlər əsasında dərman preparatlarının və tibbi ləvazimatların buraxılması;

9.2. dərman preparatlarının və tibbi ləvazimatların Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş qayda və təlimatlara əsasən saxlanılması;

9.3. Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş formalar üzrə dərman preparatlarının uçotunun aparılması;

9.4. fəaliyyətinə dair müəyyən olunmuş qaydada tabeçilik üzrə yuxarı səhiyyə orqanına statistik hesabatların verilməsi;

9.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələrin yerinə yetirilməsi.

## V. Aptek məntəqəsinin fəaliyyətinin təşkili

10. Aptek məntəqəsinin işçilərinin say həddinin müəyyən edilməsi tabelik üzrə yuxarı səhiyyə orqanı tərəfindən həyata keçirilir.

11. Aptek məntəqəsinin fəaliyyətini Səhiyyə Nazirliyinin Farmakoloji və Farmakopeya Ekspert Şurası ilə razılaşdırmaqla tibb müəssisəsinin baş həkimi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən provizor (və ya əczaçı) həyata keçirir. Üzrlü səbəblərə görə (əmək məzuniyyəti, sağlamlığın müvəqqəti itirilməsi və s.) mütəxəssis işdə olmadığı halda bu vəzifələr müvəqqəti olaraq baş tibb bacısına həvalə edilir.